Ədalət.-2023.-20 okty.,№40.-S.6.



*İlham Qazaxlı*

# QARABAĞ AZAD OLDU SAYƏNDƏ, ƏZİZ RƏHBƏR!!!

**(Qalib Sərkərdəmiz Cənab Ali Baş Komandan İlham Əliyevə həsr edirəm)**

**Qələmin gücü çatmaz bu hünəri yazmağa,
Tarixə qızıl hərflə yazılacaq bu zəfər.
Düşmənlər can atdılar haqqa quyu qazmağa,
Döyüş əmrinə oldu yüzlər, minlər səfərbər,
Qarabağ azad oldu sayəndə, əziz rəhbər!**

**Sən and içdin Vətənin müqəddəs bayrağına,
Qoymadın xalq tuş gələ yadların qınağına,
Qürurla qədəm basdın Qarabağ torpağına,
Qarşıladı qalib tək səni hər kənd, hər şəhər,
Qarabağ azad oldu sayəndə, əziz rəhbər!**

**Səni Tanrı bəxş etdi bu yenilməz millətə,
Hünərinlə son qoydun otuz illik həsrətə,
Şəhidlərin qisası qalmadı qiyamətə,
Qazandırdın orduya zəfər ardınca zəfər,
Qarabağ azad oldu sayəndə, əziz rəhbər!**

**Arxalandın xalqının sarsılmaz vəhdətinə,
Layiqli cavab verdin düşmən xəyanətinə,
Heyran etdin dünyanı müdrik siyasətinə,
Qəhrəmanlıq dastanı adlanacaq bu hünər,
Qarabağ azad oldu sayəndə, əziz rəhbər!**

**Əbədi yaşayacaq könüllərdə ad-sanın,
Yenilməz tək tarixdə qalacaq şöhrət-şanın,
Sən xilaskar oğlusan qalib Azərbaycanın,
Unutmaz Vətən səni keçsə də qərinələr,
Qarabağ azad oldu sayəndə, əziz rəhbər!**